# Tarixin ağrılı səhifələri qələmə alınmalıdır

## Ülkü Taşlıova: “Azərbaycanlı olmaq fərqlilikdir”

**Türkiyəli yazar Ülkü Taşlıova hekayələri, xatirələri, tərcümə və akademik yazıları ilə çağdaş ədəbiyyatda fərqlənən imzalardan biridir. 1963-cü ildə Qars şəhərinin Çıldır bölgəsində dünyaya gəlib. Orta məktəbi və liseyi Qarsda tamamladı. 1998-ci ildən Ankarada yaşayır. Son yayımlanan kitablarından biri olan “Anamı öldürdüm” hekayələr kitabı Türkiyə ədəbi mühitində maraqla qarşılandı. Qeyd edək ki, yazar Azərbaycan ədəbiyyatından da tərcümələr edib. “Kuşlukta Yazarlar Topluluğu”nun üzvüdür.**

**- Müsahibələrinizin birində “Mən ədəbiyyatla tanışmadım, onun içində doğuldum” deyə qeyd etmisiniz. Bu qədər bağlı olduğunuz ədəbiyyatdan sizə ruhən yaxın, sevə-sevə oxuduğunuz, fərqli yazı üslubuna görə sevdiyiniz müəlliflər hansılardır?**

- Müəlliflər arasında fərq qoymaq çəkindir. Bəzən bir yazıçının min səhifəlik kitabını oxuyursan, orada bir cümlə səni özünə bağlayır. Buna görə də fərqli müəlliflərin adını çəkib “bu mənə yaxındır” deyə bilmirəm. Bu həmçinin ruh halı ilə də bağlıdır. Əgər həmin an içindəki vətən sevgisi özünün ən yüksək həddindədirsə, ona uyğun bir əsər oxuyursan. Emosional vəziyyətdəsənsə, həmin duyğularına yaxın bir əsər sənə yoldaşlıq edir. Hər bir müəllif və onların əks etdirdikləri hekayələr mənə yaxındır.

**- Hekayə və xatirələrinizdə atanızı çox sevdiyinizi görürük. Onunla bağlı uşaqlıqdan ən yaddaqalan xatirəniz nədir?**

- O qədər çoxdur ki, hansını sizlə bölüşüm, bilmirəm. Mənim üçün atamla keçirdiyim hər bir anım əvəzolunmaz xatirədir. Ən yaddaqalan və hətta bütün həyatıma təsir etdiyini düşündüyüm hadisə isə ibtidai sinfə başlayarkən məni həvəsləndirməsi üçün oturub birlikdə müxtəlif rəngli kağızlarla kitablarımı üzləməyimizdir. Bu zaman atam mənə müxtəlif hekayələr danışardı. “Bu kitabları oxuyanlar böyük adam oldular” deyərək məni dərslərə həvəsləndirərdi. Atatürkdən çox danışardı. Öz uşaqlığından danışdıqlarına çox maraqla qulaq asırdım. O dövrdə kitab, dəftərin yetərincə olmaması, onların çox qiymətli olmasından danışardı. Əvvəllər sayca yetəri qədər olmayan dəftər indi çox qiymətlidir deyə hər dəfə nələrsə yazanda dəftərdə heç boşluq buraxmazdım. Atamın bu cür münasibəti təhsil həyatıma təsir edən ən böyük faktorudur deyə bilərəm.

**- Ailəniz haqqında danışmağınızı istəyərdim. Məşhur bir aşığın qızısınız. Ailənin digər üzvlərində ədəbiyyata, sənətə maraq necədir?**

- Ailədə yeddi övlad - altı bacı bir qardaşıq. Hər birinin incəsənətin müxtəlif növləri ilə məşğul olduğunu qeyd edə bilərəm. Lakin bunlar içərisində ədəbiyyat daha öndə durur. Qardaşım ədəbiyyat sahəsi üzrə professordur. Atam başda olmaqla müxtəlif müəlliflərə dair elmi işləri vardır. Onu da qeyd edim ki, hamımız ədəbiyyat sahəsində olmasaq da, çox yaxşı oxucuyuq.

**- Qafqazdan olmağınız hansı xarakterinizdə özünü göstərir?**

- Əvvəlcə onu qeyd edim ki, Qafqazlı olmaq, xüsusən də azərbaycanlı olmaq fərqlilikdir. Osmanlı-Rusiya müharibəsi dövründə doğma yurd-yuvamızdan köç etdiyimiz üçün Qafqaz deyincə ilk ağlıma acı, həsrət gəlir. Bunların təsiri ilə ruhumda həmişə bir hüzn var. Doğma musiqini dinləyincə bizə danışılan xatirələr beynimdə canlanır. Oxuduğum, düşündüyüm zaman həmişə ruhuma kök salan hüznü hiss edirəm. Qafqazlı olduğum üçün fəxr edirəm, ancaq doğma yurddan didərgin düşdüyümüz üçün bu hiss hər zaman məndə hüznlə yanaşı yaşayır. Qafqazlı olmaq savaşmağı, güclü olmağı bacarmaqdır.







**- Həm Qafqaz, həm də Türkiyə geopolitik bir yerdir. Dünyanın həm mədəniyyət beşiklərindən biri, həm də qaynar nöqtələrindən ən çox diqqət çəkənidir. Bu cür qarışıq bir coğrafiyada yazıçının əsas missiyası nə olmalıdır?**

- Düşünürəm ki, əvvəlcə tarixini oxucuya çatdırmalıdır. Qanı, canı bu torpaqla yoğrulmuş oxucu üçün tarixin ədəbiyyatda öz əksini tapması maraqlı olacaqdır. İkinci isə coğrafi məkanın bu tarixə göstərdiyi təsiri oxucu görməlidir. Ən əsas isə bütün bunların timsalında vətən anlayışının oxucuya çatdırılması əsas məqsəd olmalıdır. Vətən torpaq, doğulduğun coğrafi ərazi, yoxsa yaşadığın yerdir? Yazıçı əsərlərində buna cavab tapmalıdır. Dünyanın hansısa bir yerinə gedib oranı özünə vətən edə bilərsən, amma bir millət kimi formalaşa bilməzsən. Yazıçılar tarixə çox böyük yer verməlidir. Tarixin ağrılı səhifələri qələmə alınmalıdır. Gənclər millətinin keçmişini dərindən bilməlidir.

**- Musiqinin gücü, atmosferi yazdığınız hekayələrə necə təsir edir?**

- Musiqi məndə fərqli bir aura yaradır. Şübhəsiz, atamın aşıq olmağı da buna çox böyük təsir edib. Təbiətin özü belə musiqidir. Küləyin, yağışın səsi, yarpağın xışıldaması belə... Bir hekayə yazacağamsa, hadisələr harda baş verəcəksə, o yerlərə aid bir musiqi müşayiəti ilə fikirlərimi kağıza köçürürəm. Həmin musiqi ilə birlikdə o dağları, yarpaqları, həmin əraziləri görürəm. Atların ayaq səslərini duyuram. Mən musiqidən təsirlənərək hekayə yazmıram, yazarkən musiqini tapıram.

**- Atanızın yaradıcılığından öyrəndiyiniz əsas dərslər hansıdır?**

- Atamdan çox çalışmağı öyrənmişəm. Mənə “Dünyada heç vaxt nə söz bitər, nə də saz. Sən həmişə çalış” deyərdi.

**- Orhan Pamukun roman yazmağı iynə ilə quyu qazmağa bənzətməsi hər hansısa bir yazıçının çalışmaq əzmini çox gözəl ifadə edir. Sizə görə yazıçının çalışmaq əzmi necə olmalıdır?**

- Yazıçı hər şeydən əvvəl yazacağı mövzu haqqında geniş məlumata sahib olmalıdır. Yazıçı oxucuya çatdıracağı fikirləri beynində tam aydınlaşdırmalı, sonra qələmə almalıdır. Yazmaq ağrılı bir haldır. Adi bir cümləni tamamlamaq üçün bəzən gecələr boyu fikirləşmək lazım gəlir. Yaradacağın obrazı əvvəlcə mənimsəmək sonra oxucu ilə bölüşmək lazımdır.

**- Hekayələrinizdə xatirə motivləri əsas yer tutur. Xatirə danışmaq, onu yazmaq keçmişə hörmətinizin göstəricisidir. Necə düşünürsünüz ədəbiyyat xatirələr üzərinə yazılanda daha səmimidir, yoxsa gələcəyə ümidə?**

- Mən həmişə hekayələrimin həyatda baş verən hadisələr əsasında yazılmasını istəyirəm. Mənə görə təxəyyülümdə hadisələri formalaşdırmaqdansa, yaşananları ədəbi nümunə kimi yaratmaq daha doğrudur. Düşünürəm ki, oxucuya həyat hekayələrinin doğru çatdırılmasına görə bu vacibdir. Hadisələri kağıza köçürdükdə onsuz da onu gələcəyə daşımış olursan. Bu bir-biri ilə əlaqəlidir.

**- “Anamı öldürdüm” kitabı başda olmaqla digər yaradıcılıq nümunələrinizdən hansı xüsusiyyətlərin azərbaycanlı oxucular üçün maraq doğura biləcəyini düşünürsünüz?**

- Ayrıca bir hekayə olan “Anamı öldürdüm” ermənilərin zülmü ilə Borçalıdan Osmanlıya qaçan ana və oğulun hekayəsidir. “Anamı öldürdüm” kitabının içindəki hekayələrin çoxu belə köç hekayələridir. Bütün bu məsələlər Azərbaycan gəncliyi timsalında, türk dünyasını, hətta bütün bəşəriyyəti maraqlandıra biləcək hadisələrdir. “Anamı öldürdüm” hekayəsi qohumum olan bir insanın taleyi əsasında qələmə alınıb. Həmin adam böyüyüb hakim olsa da, atamla danışarkən həmişə deyərdi ki, “Hakim oldum, ədaləti təmsil edirəm, amma anasını öldürmüş bir uşağam.” Bir millətin bir insana anasını öldürə biləcəyini təkcə Türkiyə, Azərbaycan oxucusu deyil, bütün dünya oxucuları bilməlidir. Anasının namusuna toxunulmasın deyə 9-10 yaşındakı uşağın onu öldürməsi necə bir dəhşətdir. Bütün bunların həyatdan götürülməsi, həmin insanların bir xalq olaraq bizə nələr yaşatdığını göstərməsi, yaxud “Mavi alay” hekayəsində Krım tatarlarının başına gələn hadisələrin başda türk oxucularının olması ilə bütün dünya oxucuları üçün tarixin qaranlığında baş verən hadisələrə işıq tutulması bizə öz keçmişimizi daha dərindən bilməyə kömək edə bilər.

**- Sazın çox qəribə sehrli bir abhavası var. XXI əsrin gəncləri bir qədər həmin atmosferdən uzaq, daha çox, rok, rep musiqi mühitinə yaxındır. Yazdıqlarınızdakı o sazın havasını gənclərə necə maraqlı edirsiniz?**

- Hamı gənclik dövründə fərqli ruhda olan musiqilər dinləsə də, yaşlandıqca öz kökünə dönüşdən irəli gələn milli musiqilərə bağlılıq insanların əlində deyil.

**- Hekayələriniz içində sizə ən doğma gələn, sevdiyiniz əsər hansıdır?**

- Hamısı yaşanmış hekayələr olduğu üçün istər onu yazan zaman, istərsə də daha sonra çox zaman ağlamışam. Mənə ən çox təsir göstərən hekayələrin içərisində “Mavi alay”, “Kanayan sandık”ın adını çəkə bilərəm. Bunların hamısı bizim ailə hekayələrimiz olduğu üçün bəzən başqası yazmış kimi oturur ağlayar, dərdlənər, daha sonra yenidən yazmağa davam edərdim.

**- Atanız Azərbaycan aşıq və şairlərindən kimlər haqqında danışırdı?**

- Bizim evdə həmişə azərbaycanlı şair və aşıqlardan danışılardı. Atam Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Mikayıl Azaflı və başqaları haqqında həmişə danışardı və onun ifasında Azərbaycanlı aşıqların musiqilərini dinlərdik. Müasirlərdən Zəlimxan Yaqubun şeirlərini sevə-sevə dinlərdik.

**- Sevdiyiniz dastan hansıdır?**

- Mən Əsli və Kərəm dastanını çox sevirəm. Bir də atamın yaratdığı, qələmə alınıb, yenilənməsi lazım olan “Çıldırgölü əfsanələri” var. O çox möhtəşəm əsərdir. Digər dastanlardan “Koroğlu”ya qarşı olan sevgimi təsvir etməyə sözlər kifayət etməz.

**- Bu yaxınlarda “Dədə Qorqud” dastanının itmiş 13-cü boyu tapıldı. Bu da o deməkdir ki, hələ də dastanların yeni boylarının, yaxud yeni dastanların tapılması mümkündür. Necə düşünürsünüz, dastanlarda bizə hələ də bilinməyən, yavaş-yavaş üzə çıxacaq hansı tərəflər ola bilər?**

- Dastanların arxa planlarını yaxşı araşdırmaq lazımdır. Orada olan obrazların hansı tarixi şəxsiyyətlər ola biləcəyini araşdırmaq bizə tariximizlə bağlı da çox maraqlı nüansları aça bilər. “Dədə Qorqud”da belə məsələlərə diqqət etməyə başladıqda anlayırsan ki, iki-üç dəfə oxumağına baxmayaraq, əslində ancaq bunun hekayəsini oxumusan. Gizli nüanslara toxunmadan oxumaq doğru deyil.

**- Avropada roman sənəti mifologiyadan qaynaqlanır. Bizim dastanlar üzərindən bu gün müasir əsərlər yaranırmı?**

- Qərb ədəbiyyatını üstün tutmaqla özümüzdə olan bir çox şeyi itirdik. Bu gün dastan söyləyə bilən neçə nəfər var? Yaxud ümumi dastanlar haqqında geniş məlumatı olan? Əgər bu gün belə əsərlər yaranmırsa, bu onlara yetərincə diqqət ayrılmamasından irəli gəlir.

**Söhbətləşdi: Rəvan Cavid, Fərqanə Qədimova**